**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA ETNİK AZLIQLARIN MƏİŞƏT MƏDƏNİYYƏTİ (MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN MATERİALLARI ƏSASINDA)

İxtisas: 5102.01 – Etnoqrafiya və etnologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Sara Ərşad qızı Əhmədova**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Elmi fond şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix üzrə fəlsəfə doktoru, dosent
**Gülzadə Sərxan qızı Abdulova**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**Fəzayıl İmran oğlu Vəliyev**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Asəf Yunis oğlu Orucov**

tarix üzrə fəlsəfə doktoru
**İsmayıl Balı oğlu Umudlu**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
__________________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
__________________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, dosent
__________________ **Solmaz Səttar qızı Məhərrəmova**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Azərbaycan etnoqrafiyası elminin qarşısında duran vacib problemlərdən biri Azərbaycan ərazisində yaşayan müxtəlif xalqların və etnik azlıqların məişət mədəniyyətinin tarixi-etnoqrafik baxımdan araşdırılaraq öyrənilməsidir. *"Ənənəvi məişət mədəniyyəti xalqımızın əsrlər boyu yaratdığı, zamanla inkişaf etdirərək nəsildən-nəslə ötürdüyü və bu günə qədər qoruyub saxladığı maddi və mənəvi mədəniyyət dəyərlərini ifadə edir. Bu mədəniyyət xalqın ilkin təxəyyül və idrak qabiliyyətləri, zəngin təcrübəsi və praktik bacarıqları sayəsində yaranmışdır. Buraya əkinçilik, maldarlıq, bağçılıq, üzümçülük və digər yardımçı təsərrüfat sahələrində istifadə olunan əmək və məişət alətləri, ev peşələri və sənətkarlıq nümunələri, daş, gil, ağac, metal və dəmirdən hazırlanmış məişət və təsərrüfat əşyaları, geyimlər, eləcə də ev interyerində istifadə edilən tikmə və toxuma məmulatları daxildir"*[1].

Zəngin mədəni irsə və qədim tarixə malik olan Azərbaycan çoxmillətli və çoxkonfessial bir ölkədir. Əlverişli coğrafi areal və iqlim şəraiti Azərbaycan ərazisində tarixin müxtəlif dövrlərində fərqli dil və dinə mənsub olan əhalinin məskunlaşmasına və yaşayıb-yaratmalarına əlverişli zəmin yaratmışdır. Qədim dövrlərdən başlayaraq hakim türk etnosu ilə iç-içə yaşayan digər xalqların dil və dinlərinə hörmət etmək ənənəsi öz prinsipiallığını hifz edərək müasir dövrədək davam etdirmişdir. Hal-hazırda da ölkəmizdə etnik azlıqlara diqqət və qayğı göstərilərək, onların maddi və mənəvi mədəniyyətlərini inkişaf etdirmələrinə daim dövlət tərəfindən şərait yaradılmışdır. Azsaylı xalqların hüquqlarının qorunması demokratik dəyərlərin hökm sürdüyü Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərindən biri olmuş, siyasi və sosial sabitliyin qorunmasında mühüm amillərdən birinə çevrilmişdir. Azərbaycan gənclərinin 2 fevral 1996-cı ildə Respublika Sarayında keçirilən Forumundakı nitqində Ulu Öndər Heydər Əliyev tam əminliklə demişdir: *"Azərbaycan Azərbaycanda yaşayan bütün millətlərin doğma Vətənidir. Azərbaycan vətəndaşları, Azərbaycan xalqı*

---

[1]Həsənova, G. Azərbaycan xalqının ənənəvi məişət mədəniyyəti (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) / G.Həsənova. - Bakı: Mütərcim, - 2024. -s. 6

*deyəndə biz Azərbaycanda yaşayan bütün millətlərin birliyini dərk edirik. Mən böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycanda millətlər arasında olan əlaqələr mehriban dostluq əlaqələridir, bir-birinə hörmət, ehtiram əlaqələridir və biz bu əlaqələri inkişaf etdirəcəyik, bu əlaqələri yaşadacağıq, qoruyub saxlayacağıq. Ona görə də Azərbaycanın xüsusiyyətini – çoxmillətli ölkə kimi xüsusiyyətini qoruyub saxlamaq bizim borcumuzdur, gənclərimizin vəzifəsidir"*[2]. Bütün bu amillər etnik azlıqlarn Azərbaycanın bir parçası olduğunu və onların məişətinin kompleks şəkildə öyrənilməsini aktuallaşdırır.

Etnik qrup anlayışının başa düşülməsi üçün siyasi-hüquqi terminologiyada "milli azlıq" ifadəsi istifadə edilir. Dünya hüququnda, Birləşmiş Millətlər Təşkilatının sənədlərində "milli azlıq" və "etnik azlıq" (etnik qrup) bir çox hallarda eyni mənada işlədilir. Yəni, etnik qrup konkret toplu fərdlərin, əsasən dil, soykök, tarix, cəmiyyət, mədəniyyət, milliyyət və ya sosial davranış oxşarlıqlarını və ya bərabərliyini əsas götürərək digər qruplar tərəfindən adlandırılmasına deyilir. Etnik qrup anlayışı tez-tez milliyyət, etnik milliyyət və bir qrup insanın digərlərindən milli zəmində fərqləndirilməsi üçün istifadə edilir[3]. Milli azlıqlar dedikdə buraya əsasən bu və ya başqa ölkədə, dövlətdə, respublikada yaşayan, ölkənin, dövlətin, respublikanın əhalisinin çoxunu təşkil edən millətdən sonra azlıqda qalanlar nəzərdə tutulur[4]. Belə ki, Rusiyada, Ukraynada, Belarusiyada, Gürcüstanda, Qazaxıstanda yaşayan azərbaycanlılar həmin ölkələr üçün milli azlıq hesab edilirlərsə, Azərbaycan Respublikasında yaşayan ruslar, ukraynalılar, belaruslar, gürcülər də milli azlıqlar hesab olunurlar[5]. Tədqiqat işində milli azlıq, etnik qrup və azsaylı xalqlar kimi ifadələr işlədilmişdir.

Uzun sürən ictimai-siyasi və sosial-iqtisadi proseslər nəticəsində Azərbaycan torpaqlarında yaşayan etnik azlıqlar özlərinin birlik

---

[2] Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. - Bakı: Azərnəşr, - c. 3. – 1997. – s. 321

[3] Niftiyev, N. Azərbaycanda birgəyaşayış və multikulturalizm / N.Niftiyev. - Bakı: 2015. – s. 18.

[4] Niftiyev, N. Göstərilən əsəri, s. 28

[5] Cavadov, Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik) / Q. Cavadov. - Bakı: Elm, - 2000. - s. 9.

və bərabərliklərini qoruyub saxlamağa müvəffəq olmuşlar. Bənzər sosial-iqtisadi şərait, dini azadlıq və tarixən işğalçılara qarşı birgə mübarizə Azərbaycanda yaşayan etnik azlıqları bir-birinə daha sıx yaxınlaşdırmışdır. Müxtəlif dinlərə inanaraq, fərqli dillərdə danışan etnik azlıqlar arasında qarşılıqlı anlaşma və dinc yanaşı yaşama ənənələri böyük və dərin olmuş, bu günə qədər mühafizə edilmişdir. Fərqliliklərə baxmayaraq onları birləşdirən dəyər özlərini Azərbaycan dövlətinin və Azərbaycan xalqının bir hissəsi hesab etmələridir. Belə ki, Azərbaycan ərazisində Azərbaycan türkləri ilə yanaşı tatlar, talışlar, ləzgilər, dağ yəhudiləri, kürdlər, ermənilər, Şahdağ qrupu xalqları (xınalıqlar, buduqlar, qrızlar, haputlar, ceklər, yergüclülər, əliklər), udilər, avarlar, saxurlar, rutullar, almanlar, ruslar, ukraynalılar və başqa xalqlar yaşamış və yaşamaqdadırlar. Bu etnik azlıqlar Azərbaycanın, əsasən, Quba (tatlar, dağ yəhudiləri, ləzgi), Qusar (ləzgi), Xızı (tat), Xaçmaz (saxur, ləzgi, avar), Şəki, Oğuz, Zaqatala, Balakən, Qəbələ, İsmayıllı (tat), Şamaxı (tat), Lənkəran (talış), Astara (talış), Lerik (talış), Masallı, o cümlədən, Bakı, Gəncə və Sumqayıt şəhərlərində məskunlaşmışlar. Onlar heç də assimilyasiyaya uğrayaraq tarix səhnəsindən silinməmiş, əksinə, bu gün də mövcuddurlar və özlərinin etnik kimliyini, identikliyini, mənəvi dəyərlərini, dilini, etnik xüsusiyyətlərini, eləcə də məişət mədəniyyətlərini qoruyub saxlamışlar ki, bu problemlərin daha dərindən araşdırılması mövzunun aktuallığının digər bir tərəfini şərtləndirir.

Son məlumatlara əsasən, respublikada yaşayan əhalisinin 91,6 faizini Azərbaycan türkləri, 8,4 faizini digər xalqların nümayəndələri təşkil edir. Azərbaycan əhalisinin etnik tərkibi əsasən belədir - Azərbaycanlılar 9436,1, ləzgilər 167,6, talışlar 87,6, ruslar 71, ukraynalılar 13,9, avarlar 48,6, tatlar 27,7, saxurlar 13,4, gürcülər 8,4, ingiloylar 1,8, kürdlər 4,1, yəhudilər 5,1, udilər 3,5, xınalıqlar 3,5, buduqlar 1,1, qrızlar 2,1 min nəfər[6].

Azərbaycan ərazisində yaşayan azsaylı xalqlar müxtəlif dövrlərin bir çox sosial-siyasi və iqtisadi-mədəni problemlərinin burulğanında xalqımızla birgə mübariz olmuşlar. İstər qədim və orta əsrlərdə, istərsə də XIX-XX əsrlərdə və müasir dövrdə dünyada baş

[6] Azərbaycanın demoqrafik göstəriciləri (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məcmuəsi), // - Bakı: 9 №-li kiçik müəssisə, - 2021. s.59

verən mühüm siyasi dəyişikliklərin mərkəzində yerləşən Cənubi Qafqaz, xüsusən Azərbaycan bu hadisələrdən heç də kənarda qalmamış, baş verən bütün sosial-siyasi və iqtisadi-mədəni proseslərin fəal iştirakçısına çevrilmişdir. Azərbaycan dünyanın o ölkələrindən biridir ki, ərazisində yaşayan etnik azlıqlar milli və dini tolerantlıq şəraitində sərbəst şəkildə dini inanclarını qoruya bilir, hətta, ölkənin müxtəlif bölgələrində onların kilsələri, məscidləri və sinaqoqları rahat şəkildə fəaliyyət göstərir, özlərinin dini ayinlərini, bayramlarını, adət-ənənələrini sərbəst şəkildə icra edə bilirlər. Azərbaycan muzeyləri yaradılarkən də heç bir ayrı seçkiliyə yol verilməmiş, MATM kolleksiyasına etnik azlıqlara aid mühüm materiallar toplanmışdır. Bu materiallar əsasında etnik azlıqların məişət mədəniyyətinin işıqlandırılması və elmi dövriyyəyə daxil edilməsi də mövzunun aktuallığını şərtləndirən amillərdən biridir.

Azərbaycan ərazisində məskunlaşan azsaylı xalqların hər biri öz milli xüsusiyyətlərini qoruyub saxlamaqla yanaşı, digər milli azlıqların məişət tərzində, adət-ənənəsində və ümumiyyətlə, mədəniyyətindəki bir çox mühüm cəhətləri bir-birinə ötürərək, onları qarşılıqlı formada inkişaf etdirmişdir. Bu etnik azlıqların nümayəndələri daima özlərini azərbaycanlı saymış, eyni zamanda, özlərinə məxsus fərqli mədəniyyətlərinin elementlərini qoruyub saxlaya bilmişlər. Bu elementlər özünü məişətdə, sənətkarlıqda və müxtəlif mərasimlərdə açıq şəkildə göstərir. Etnik azlıqların məişət mədəniyyətində tarixi varisliklə yanaşı, bu qarşılıqlı-müştərək zənginləşmənin araşdırılması da mövzunun aktuallığına rəvac verir.

Aktuallığı şərtləndirən digər amillərdən biri də son illərdə qloballaşma prosesi ilə bağlı dünyanın və ölkəmizin etnik mənzərəsində baş verən köklü dəyişikliklər, multikultural dəyərlərin yüksələn xətlə inkişaf etməsi, etnik azlıqların tarixinə və mədəniyyətinə həm yerli, həm də əcnəbilər tərəfindən marağın artması, etno-mədəni əlaqələrin gündən-günə daha da inkişaf etdirilərək gücləndirilməsi, dövlət siyasəti səviyyəsində etnik azlıqların tarix və mədəniyyətlərinin öyrənilməsi sahəsində yeni tədbirlərin görülməsi və s. məsələlərdir.

Xalqların tarix və məişətinin öyrənilməsi müasir dövrdə daima müəyyən çətinliklər qarşısında qalmışdır. Bu sahələri öyrənmək üçün materiallar kifayət etmədiyindən, bu proses olduqca ləngimişdir.

Həm də zaman keçdikcə məişət mədəniyyəti müasir etnoqrafik elementlərin məişətə daxil olması ilə unudularaq tarixə qovuşmuşdur. Bu baxımdan tarixi inkişaf və tərəqqinin ümumi mənzərəsinin yaxından izlənilməsi, keçmişə dair materialların bərpa olunaraq elmi dövrəyə daxil edilməsi, məişət mədəniyyətinin imitasiya edilərək mühüm xüsusiyyətlərinin gələcək nəsillərin təsəvvürlərində canlandırıb yaşadılması da tədqiqatın aktuallığını ortaya qoyur.

Hazırda Respublikada yaşayan etnik azlıqların məişət mədəniyyətinin öyrənilməsi, eyni zamanda, siyasi əhəmiyyət daşıyır. Belə ki, Azərbaycanda yaşayan etnik azlıqların kimliyini və identikliyini tanımaqla, Azərbaycan dövləti onların milli-mənəvi dəyərlərinə hörmət edir, bununla da onların bir varlıq kimi yox olmaq təhlükəsi aradan qaldırılmış olur. Yəni, Azərbaycanda yaşayan xalqlara və etnik azlıqlara göstərilən diqqət və qayğıdan irəli gələrək onların tarix və mədəniyyətinin öyrənilməsi istiqamətində daim xüsusi tədbirlər görülür. Bununla da Azərbaycan Respublikası milli və dini torelantlığa, multikultural ənənələrə, bir sözlə, milli-mənəvi dəyərlərə əsas önəm verməsinin ön sıralarında getdiyini bütün dünyaya bəyan edir. Azərbaycan müstəqillik qazandıqdan sonra da qəbul edilmiş konstitusiya və qanunlara əsasən Azərbaycan torpaqlarında yaşayan etnik azlıqlar bərabər hüquq və imtiyazlara sahibdirlər. XXI əsrin əvvəllərində dünyada baş verən qlobal dəyişikliklərə rəğmən inkişafını davam etdirən Azərbaycan Respublikasında bu istiqamətdə bir sıra ilklərə imza atılmış, müxtəlif fərman və sərəncamlar verilmişdir. Bu atılan addımlar respublika ərazisində fəaliyyət göstərən muzeylərin fəaliyyətində də özünü göstərmişdir. Məlum olduğu kimi, muzeylər maddi mədəniyyət nümunələrinin toplanması, bərpası, qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi işində böyük xidmət göstərirlər. Ulu öndər Heydər Əliyevin bu sahəyə daim diqqət və nəzarəti olmuş, onun təşəbbüsü ilə 1993-cü ildə Nazirlər Kabinetində muzey işçilərinin Respublika müşavirəsi keçirilmişdir. 1994-cü ildə həmin müşavirənin materialları əsasında “Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılmasına dair” qərar qəbul edilmişdir. Ümummilli lider H.Əliyevin 1998-ci il fevral ayında “*Mədəniyyət haqqında*”, 2000-ci ilin martında isə imzaladığı “*Muzeylər haqqında qanun*” ilə milli sərvətlərin saxlandığı muzey-

lərin və muzey fondlarının mühafizəsinə dövlət qayğısı bu baxımdan əhəmiyyətlidir[7]. Bu gün Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən bu sahədə əvəzsiz addımlar atılır və dünya əhəmiyyətli layihələr gerçəkləşdirilir. Prezident İ.Əliyev xalqımızın tarixindən süzülüb gələn ənənələri yaşadaraq hazırda bu siyasəti uğurla davam etdirir. O, mühüm əhəmiyyət daşıyan yeniliklərə imza ataraq, bu ənənələrin qorunub saxlanması işində verdiyi fərman və sərəncamlarla etnik azlıqarın mədəniyyətlərinin yaşadılması istiqamətində onların sosial və mədəni-iqtisadi rifahını daim yaxşılaşdırmağa çalışır. Sözügedən qanunlar, eləcə də, Azərbaycanda yaşayan etnik azlıqların maddi-mədəniyyət nümunələrinin muzeylərdə qorunub saxlanılması və onların təbliği məsələlərinə də aiddir. Bütün bu məsələlər mövzunun akuallığını bir daha şərtləndirən amillərdir.

Təqdim edilən dissertasiya işi həm də Azərbaycan adlanan etno-coğrafi məkanda məskun olan etnik azlıqların məişət mədəniyyətinin əsas sahələrinin MATM fond və kolleksiyalarının materialları əsasında kompleks şəkildə tarixi-etnoqrafik tədqiqata cəlb olunması istiqamətində ilk təşəbbüsdür.

Son illər dünyada və ölkədə gedən sosial-siyasi və iqtisadi-mədəni proseslər etnik azlıqların tarixi və mədəniyyətinin öyrənilməsinə də əlverişli şərait yaratmışdır. Müasir dövrümüzdə etnik azlıqlara artan maraqdan irəli gələrək müxtəlif istiqamətlərdə tədqiqat işləri aparılmışdır. Onların məişətinin elmi səviyyədə öyrənilməsinə ilk dəfə XIX əsrdə rus tədqiqatçıları müəyyən istiqamətdə töhfə vermişlər. XIX ərdə Cənubi Qafqazın, eləcə də, Azərbaycanın xəritəsində baş verən dəyişikliklər, etnik baxımdan rəngarəng olan bu regionun öyrənilməsinə də maraq yaratmışdır. Tərkibinə daxil etdiyi əraziləri öz idarəçiliyində saxlamaq üçün müxtəlif yollara baş vuran Rusiya imperiyası bölgə əhalisinin etnik tərkibini, onların tarix və mədəniyyətini öyrənmək üçün müxtəlif istiqamətli tədbirlərə başlamışdır. Odur ki, *"Azərbaycan xalqının etnik tərkibinin öyənilməsi, etnoqrafik materialların sistemli şəkildə*

[7] Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan" qəzeti, 18 aprel 1998-ci il, № 86; Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 24 mart 2000-ci il [Elektron resurs]https://e-qanun.az/framework / 735

*toplanmasının başlanğıcı əsasən XIX əsrə aiddir”*[8]. İlk olaraq XIX əsrin 40-cı illərində B.Leqkobıtov[9] ləzgiləri, tatları, xınalıqları, XIX əsrin 50-ci illərində İ.Berezin[10] farsları, XIX əsrin 60-cı illərində P.F.Riss [11] və D.Kistenyev [12] talışları, XX əsrin əvvəllərində K.Kurdov[13] tatları və Azərbaycanın müxtəlif bölgələrində yaşayan etnik azlıqları öyrənmişlər. Bu əsərlərdə tədqiqata cəlb etdiyimiz etnik azlıqların məişət və mədəniyyətinə aid xeyli faktoloji materiallar toplanmışdır ki, bunlar mövzumuz üçün dəyərli məlumat bazası olmuşdur. XX əsrin 20-30-cu illərində Azərbaycanın bir sıra etnik azlıqlarının öyrənilməsi davam etdirilmişdir. Bu baxımdan, “*1923-cü ildə yaradılan “Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti”nin (bundan sonra: “Cəmiyyət”) fəaliyyəti xüsusilə qeyd edilməlidir. Məlum olduğu kimi, “Cəmiyyət”in şöbələrindən biri “Tarix və etnoqrafiya” adlanırdı”* [14]. Azərbaycanda etnoqrafik tədqiqatlarla məşğul olan bu şöbə işini əsasən iki istiqamətdə aparırdı: ölkənin əsas aparıcı etnosu olan azərbaycanlıların tarix və etnoqrafiyasını öyrənilməsi və Azərbaycan ərazisində tarixən məskunlaşan etnik azlıqların tarix və etnoqrafiyasının öyrənilməsi. Hətta, bu məqsədlə şöbə nəzdində tat, kürd, talış və başqa komissiyalar da yaradılmışdı. Nəticə etibarilə, “Cəmiyyət” Azərbaycanda yaşayan xalqların tarixi və etnoqrafiyasının öyrənilməsi sahəsində böyük işlər görmüş oldu.

---

[8] Yoloğlu, G. Mövsüm mərasimləri / G.Yoloğlu. – Bakı: Xəzər Universiteti, -2009. - s. 11-12.

[9] Легкобытов, В. Талышское ханство. // Обозрение, ч. III, - Спб:1836. - с.175-244.

[10] Березин, И. Путешествие по Востоку (Путешествие по Дагестану и Закавказью) / И. Березин. - Казань: Унив. тип., - 1850. - 235 с.

[11] Рисс, П.Ф. О талшинцах, их образе жизни и языке // Записки Кавказского отдела Русского Географического Общества, -кн. 3. - Тифлис: 1855. - с.234-245.

[12] Кистенев, Д.А. Экономический быт государственных крестьян Ленкоранского уезда Бакинской губернии // Материалы для изучения -экономического быта государственных крестьян Закавказского края, - т. 7, -Тифлис: 1887. с. 535-764.

[13] Курдов, К.М. Таты Дагестана // Русский антропологический журнал, -1907. № 3-4, - с. 56 - 67.

[14] Cavadov, Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik) / Q. Cavadov. - Bakı: Elm, -2000. – s. 36.

Azərbaycan kürdlərinin öyrənilməsində Ə.Ələkbərovun[15], A.Bukşpanın[16], Q.F.Çursinin[17]və T.F.Aristovanın[18] araşdırmaları da xüsusi qeyd olunmalıdır. Ə.Ələkbərov kürdlərin maddi mədəniyyəti, oyun və əyləncələri, A.Bukşpan onların mədəni quruculuq və təhsil həyatı haqqında məlumatlar vermişdir. T.F.Aristovanın əsərində Azərbaycan kürdləri haqqında məlumatlar az olsa da, mövzunun araşdırılmasında əhəmiyyətli olmuşdur. Qrız və buduqlarla bağlı V.Z.Piriyevin[19] tədqiqatı bu xalqların öyrənilməsinin tarixşünaslığı baxımından mühüm əhəmiyyətə malikdir. Artıq XX əsrin 70-90-ci illərindən etnik azlıqların öyrənilməsində yerli alimlərin sırası daha da genişlənməyə başlamışdır. Q.Cavadovun talışlar[20], N.İbrahimovun[21] almanlar, Q.Qeybullayevin[22] azərbaycanlıların etnik tarixində yer alan etnik azlıqlar haqqında araşdırmaları qiymətlidir.

Dövlət müstəqilliyinin bərpasından sonra (1991-ci il) bir çox sahələrdə olduğu kimi, etnik azlıqların öyrənilməsi işində də müəyyən irəliləyişlər olmuşdur. Etnoqraf-tədqiqatçı Q.Cavadov "Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik)" adlı monoqrafiyasında[23], daha sonra R.Hüseynov yəhudilər və o cümlədən, dağ yəhudiləri ilə bağlı məqalələrində bu məsələlərə müəyyən

---

[15] Алекперов, А. К вопросу об изучении культуры курдов. Лачинский и Келбаджарские районы // - Баку: Труды Азербайджанского филиала Академии наук СССР, - 1936. т. XXV, - с. 33 - 61.
[16] Букшпан, А. Азербайджанские курды / Букшпан А. – Баку: - 1932. - 94 с.
[17] Чурсин, Г.Ф. Талыши (этнографические заметки) // Известия кавказского историко-археологического общества, - Тифлис: - 1926. том 4. – с. 15- 45.
[18] Аристова, Т. Курду Закавказья (историко-этнографический очерк) / Т. Аристова. - Москва: Наука, -1966. - 216 с.
[19] Piriyev, V. Buduq və buduqlular / V.Piriyev. - Bakı: Sabah, - 1994. -138 s.
[20] Cavadov, Q. Talışlar / Q. Cavadov. – Bakı: Elm, - 2004. – 616 s.
[21] İbrahimov N. Azərbaycan tarixinin alman səhifələri / N. İbrahimov. Bakı: -1997. - 336 s.
[22] Qeybullayev, Q.Ə. Azərbaycan türklərinin təşəkkülü / Q. Qeybullayev. - Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - 1994, - 248 s.; Qeybullayev, Q. Ə. Azərbaycanlıların etnik tarixinə dair / Q.Ə. Qeybullayev. - Bakı: Elm, - 1994. -102 s.
[23] Cavadov, Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik) / Q. Cavadov. - Bakı: Elm, - 2000. - 440 s.

qədər toxunmuşdur[24]. Q.Cavadovun “Talışlar” adlı monoqrafiyası bu etnik azlığın tarixi və mədəniyyətinin öyrənilməsi istiqamətində atılan dəyərli bir addım kimi təqdirəlayiqdir[25].

Dağ yəhudiləri ilə bağlı Lia Mikdaş-Şamailovanın redaktəsi və tərtibatı ilə rus və ingilis dillərində müvafiq olaraq “Qafqazın dağ yəhudilərinin tarixi və mədəniyyəti” və “Qafqazda Dağ yəhudilərinin adət-ənənələri və məişəti” əsərləri araşdırma üçün böyük fayda vermişdir[26]. Birinci əsərdə yalnız Azərbaycan ərazisində deyil, ümümilikdə Qafqazda yaşayan dağ yəhudilərinin tarixi, dini inacları və adət-ənənələri haqqında müfəssəl məlumatlar öz əksini tapmışdır. Digər kitabda isə dağ yəhudilərinin tarixi ilə yanaşı, daha çox məişət mədəniyyəti məsələləri, o cümlədən müxtəlif sənət növləri haqqında materiallar cəmlənmişdir. Hər iki əsər dağ yəhudilərinin tarixi, sosial-siyasi vəziyyəti, məişət və mənəvi mədəniyyətini öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir. Yeni tədqiqatlardan biri də E.Nəzərovanın redaktorluğu ilə “Dağ yəhudilərinin tarixi və mədəniyyəti” adlı məqalələr toplusu 2018-ci ildə Moskva şəhərində nəşr olunmuşdur[27]. Əsərdə dağ yəhudilərinin tarixi və mədəniyyəti haqqında müxtəlif materiallardan yeri gəldikcə tədqiqat işində istifadə edilmişdir.

Azərbaycanda yaşayan tatlar haqqında da müxtəlif səpkili tədqiqatlar aparılmışdır. M.Əliyev Azərbaycan tatları haqqında yazdığı kitabda tat etnik qrupu, tat sözünün müxtəlif mənaları, onların məşğuliyyəti haqqında çeşidli məlumatlar vermişdir[28]. A.Mustafayevin “İngiloyların maddi mədəniyyəti”[29], Q.Cavadov və

---

[24] Гусейнов, Р. Иудаизм на Кавказе // Кавказ и глобализация, - в. 3 т. 2. – 2008. - с. 194-204; Huseynov, R. Jews in Azerbaijan // -Bakı: İRS, - 2001, № 7 - p. 48 -56.
[25] Cavadov, Q. Talışlar / Q. Cavadov - Bakı: Elm, - 2004. - 616 s.
[26] Микдаш-Шамаилова, Л.А. История и культура горских евреев Кавказа / Л.А. Микдаш-Шамаилова. // Институт Стратегических Исследований Кавказа, - Иерусалим-Куба: - 2009. -223 с.; Mountain Jews. Customs and Daily life in the Cuacasus. The İsrael Museum / - Jerusalim: - 2002. - 160 p.
[27] История и культура горских евреев / Сост. Назарова Е.М. - Москва: -2018. -800 с.
[28] Əliyev, M. Azərbaycan tatları / M. Əliyev. - Bakı: - 2006. - 260 s.
[29] Mustafayev, A. İngiloyların maddi mədəniyyəti (tarixi etnoqrafik-tədqiqat). / - Bakı: Çaşıöğlu, - 2005. - 224 s.

R.Hüseynovun həmmüəllifi olduğu "Udilər"[30] monoqrafiyası da bu istiqamətdə böyük əhəmiyyət kəsb edir. Azsaylı xalqlardan almanlar haqqında Q.Cavadov[31], N.İbrahimov[32], E.Kərimov[33] və S. Zeynalovanın[34] tədqiqatları mövcuddur. Azərbaycana köçürülən ruslar haqqında isə Q.Cavadov[35] və H.Verdiyeva[36] tədqiqat aparmışlar.

Q.Cavadov[37] və M. Paşayeva ilə A.Qurbanov[38] isə etnik azlıqları ümumilikdə araşdırmış və onların əsərləri də təqdiqatımız üçün istiqamətverici roluna görə olduqca dəyərlidir. A.Mustafayev[39], F.Vəliyev[40], S.Məhərrəmova[41], Ş.Bünyadova[42], H.Quliyev[43],

---

[30] Cavadov, Q., Udilər / Q.Cavadov, R Hüseynov. - Bakı: Elm, -1999. - 256 s.

[31] Cavadov, Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik) / Q. Cavadov. - Bakı: Elm, - 2000. - 440 s.

[32] İbrahimov, N. Azərbaycan tarixinin alman səhifələri / N. İbrahimov. - Bakı: - 1997.- 336 s.

[33] Керимов, Э. Русские Азербайджана // İRS, - 2010, №3 (45), - c. 10-14.

[34]Зейналова, С. Немецкие колонии Азербайджане (1819-1941) / С .Зейналова. -.Баку: -.2000. - 222 c.

[35] Cavadov, Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik) / Q. Cavadov. - Bakı: Elm, - 2000. - 440 s.

[36] Вердиева, Х. Немцы Северном Азербайджана / Х. Вердиева. – Баку: Элм, - 2009. – 111.

[37] Cavadov, Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik) / Q. Cavadov. - Bakı: Elm, - 2000. - 440 s.

[38] Paşayeva, M., Biz azərbaycanlıyıq (qısa enoqrafik oçerklər) / M.Paşayeva., A. Qurbanov. - Bakı: Costco Company MMC, - 2018. - 232 s.

[39] Mustafayev, A. Azərbaycanda sənətkarlıq (tarixi etnoqrafik-tədqiqat) / A.Musafayev. Bakı: - 1993. – 595 s.; A.Mustafayev. İngiloyların maddi mədəniyyəti (tarixi etnoqrafik-tədqiqat) / - Bakı: Çaşıoğlu, - 2005. - 224 s.; A.Mustafayev. Şirvanın maddi mədəniyyəti / - Bakı: Elm, - 1977. - 157 s.

[40] Vəliyev, F., Qarabağ geyimləri. Kataloq / F.Vəliyev, G.Abdulova..– Bakı: Azərbaycan Respublikası yanında Elmin İnkişaf Fondu, - 2016. - 352 s.; Vəliyev, F. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat) / F. Vəliyev. - Bakı: Şərq-Qərb, - 2010. – 424 s; Vəliyev, F. XIX-XX əsrin əvvəllərində Azərbaycanın ənənəvi qadın baş və ayaq geyimləri // - Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, - № 2, - 2005. - s. 96-103.; Vəliyev, F. Azərbaycanın ənənəvi qadın bəzəkləri tarixindən // - Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, - 2006. - s. 309-327.

[41] Məhərrəmova, S. XIX-XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq bölgəsinin maddi mədəniyyəti və təsərrüfatı / S. Məhərrəmova. - Bakı: Elm, - 2007. - s. 208; Məhərrəmova, S. XIX-XX əsrin əvvəllərində Qarabağ və Şərqi Zəngəzurda sənətkarlıq və ticarət / S. Məhərrəmova. - Bakı: Afpoliqraf, - 2023. - 256 s.

Ə.İzmayılova[44], G.Abdulova[45], H.Zahidova[46] , Ş.Nuruzadə[47] və digər tədqiqatçıların Azərbaycan xalqının və etnik azlıqların geyim və bəzəkləri, təsərrüfat və sənətkarlıq sahələri, ailə-məişəti, etno-mədəni və etnogenetik əlaqələri, sənət yaradıcılığı ilə bağlı faydalı

---

[42] Bünyadova, Ş. Azərbaycanın təsərrüfatı və maddi mədəniyyəti / Bünyadova Ş. - Bakı: Elm, - 2007. - 360 s.; Bünyadova, Ş. Orta əsr Azərbaycan ailəsi / Ş.Bünyadova. - Bakı: Elm, - 2012. - 384 s.; Bünyadova, Ş. Azərbaycan tarixi etnoqrafiyasının (XII-XVI əsrlər) öyrənilməsində Azərbaycan Tarixi Muzeyinin rolu // - Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, - 2006. s. 291-300.

[43] Quliyev, H., Metal və xalq sənətkarlığı / H.A. Quliyev, N.Tağızadə. - Bakı: Azərnəşr, - 1968. - 106 s.; Quliyev, H. XIX əsrdə və XX əsrin əvvəllərində Lahıc qəsəbəsində mis qab istehsalı // -Bakı: Azərb. EA Xəbərləri, İctimai elmlər seriyası, № 1, 1962. - s.17-30 ; Quliyev, H.A. Məişətimizdə adət və ənənələr / H.A. Quliyev. - Bakı: Azərnəşr, - 1976, - 297 s.

[44] Измайлова, А. Женская народная одежда Закатальской зоны в конце XIX начале XX века // - Баку: - Известия АН Азерб. ССР (серия ист. философ, и права), - 1974. № 4, - с. 83-92; Измайлова, А. Женские ювелирные украшение Азербайджана // - Bakı: Azərbaycan Tarixi Muzeyi, - 2001. с. 146-152; Измайлова, А. Традиционные Азербайджанские обувь и джорабы // -Bakı: Azərbaycan Tarix Muzeyi, - 2002. - с. 270-277.

[45] Abdulova (Axundova), G. S. Ənənəvi qadın geyim bəzəkləri // - Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, - 2007. - s. 185-198.; Abdulova (Axundova), G. S. Atalar sözləri və xalq məsəlləri etnoqrafik duyum-yozum kontekstində / G.S. Abdulova. - Bakı: "MBM" - 2012. - 220 s.; Abdulova, G. S. Azərbaycanın süfrə mədəniyyətində mis qabların yeri (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) // - Bakı: Azərbaycan MEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, - 2014. № 1, - s. 141-150.; Abdulova, G.S. Milli kişi geyim kompleksində dəri papaqlar // - Bakı: Azərbaycan MEA-nın xəbərləri, İctimai elmlər seriyası, - 2018. № 3. - s. 93-108; Abdulova, G. S. Qarabağın ağacişləmə sənətinə dair // - Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, - 2007. – s. 418-427. ; Abdulova, G. S. Azərbaycan tikmələri // -Bakı: Azərbaycan xalçaları, - 2014. Cild 4. - № 11., - s. 96-103.; Abdulova, G. Azərbaycan milli kişi geyimləri / Abdulova G. – Bakı: Ecoprint, – 2020. – 320 s.; Abdulova, G. Azərbaycan qadın geyim bəzəkləri. Kitab-albom / G. Abdulova. – Bakı: - Mütərcim, 2016. – 100 s.

[46] Zahidova, H. Azərbaycan etnoqrafiyası Cəfər Cabbarlı yaradıcılığında / H.Zahidova. – Bakı: Elm, - 2011. - 304 s.

[47] Nuruzadə, Ş. XX əsrin 20-30-cu illərdə Azərbaycanda etnokonfessial şərait və onun xüsusiyyətləri: / tarix elm. nam. diss., / - Bakı: 2016. – 182 s.; Nuruzadə, Ş. Azərbaycanlıların məişətində xalça və xalça məmulatlarının yeri // - Naxçıvan: Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Xəbərləri, - 2017. № 3, - s.161-168.

materiallardan dissertasiya işi üçün geniş istifadə edilmişdir. Etnik azlıqların adət-ənənələri, inancları, multikulturalizmin tarixi köklərinin öyrənilməsi ilə bağlı prof. M.Paşayevanın "Azərbaycanlıların ailə məişətində etnik ənənələr"[48], "Azərbaycanın qədim diyarı Xınalıq"[49], "Azərbaycanlıların adət və inancları"[50] və "Azərbaycan multikulturalizminin tarixi kökləri"[51] adlı monoqrafiyalarında etnik azlıqların tarixi, məişət mədəniyyəti, multukulturalizmin tarixi kökləri haqqında dəyərli məlumatlardan da araşdırmamızda lazımi səviyyədə istifadə edilmişdir. Müstəqillik qazanıldıqdan sonra multikultural dəyərlərdən irəli gələrək, dünyada gedən qlobal dəyişikliklərin nəbzini tutan, Azərbaycan Respublikasında keçirilən bir çox elmi beynəlxalq və respublika konfranslarında etnik azlıqların tarixi, mədəniyyəti və ailə-məişət məsələləri ilə bağlı müxtəlif səpkili elmi əhəmiyyətli məruzələr edilmişdir. Bu yardımçı mənbələr yaradıcı surətdə araşdırılaraq, MATM-da olan əyani-vizual materiallar ilə uzlaşdırılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycanda yaşayan etnik azlıqların bəzilərinin (tatlar, dağ yəhudiləri, talışlar, kürdlər, ləzgilər, almanlar, ruslar və ermənilər) məişət mədəniyyətinin öyrənilməsi təşkil edir. Tədqiqatın predmetini isə MATM-ın fondlarında (Arxeologiya, Etnoqrafiya, Xüsusi, Sənədli mənbələr, Foto-Neqativ, Vətən müharibəsi fondları) qorunub saxlanılan və muzeyin ekspozisiyasında nümayiş olunan materiallar – geyim nümunələri, toxuculuq (həsir, xalça və s.) məmulatı, sənətkarlıq məhsulları (mis, saxsı, dəmir və s), məişət əşyaları və avadanlıqları, müxtəlif fotoşəkillər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycan ərazisində yaşamış etnik azlıqların (tatlar, dağ

---

[48] Paşayeva, M. Azərbaycanlıların ailə məişətində etnik ənənələr (XIX-XX əsrin əvvəlləri (Şəki-Zaqatala bölgəsinin materialları üzrə) / M.Paşayeva - Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - 2008. - 308 s.

[49] Paşayeva, M. Azərbaycanın qədim diyarı Xınalıq / M.Paşayeva. - Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - 2006. - 60 s.

[50] Paşayeva, M. Azərbaycanlıların adət və inancları (XIX – XX əsrlər) / M.Paşayeva. - Bakı: AFpoliqrAF, - 2019, - 296 s.

[51] Paşayeva., M. Azərbaycan multikulturalizminin tarixi kökləri / M. Paşayeva. - Bakı:İqtisad Universiteti, - 2021. - 256 s.

yəhudiləri, talışlar, kürdlər, ləzgilər, almanlar, ruslar və ermənilər) əsrlərlə formalaşmış məişət mədəniyyətini MATM fondlarında və kolleksiyalarında qorunub saxlanan əyani materiallar əsasında kompleks tarixi-etnoqrafik tədqiqata cəlb etməkdir. Bu məqsədə nail olmaq istiqamətində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Mövcud ədəbiyyat və mənbələrə əsasən Azərbaycan ərazisində yaşayan etnik azlıqların tarixi və etnoqrafiyası haqqında mövcud olan konsepsiyaları araşdırmaq;
- Müasir dövrümüzdə etno-mədəni dəyərlərin dövlət siyasəti səviyyəsində qorunması istiqamətində atılan addımlara nəzərən, ölkəmizdə milli və dini tolerantlıq, qloballaşma bumunun səviyyəsi kontekstində etnik azlıqlara dövlət tərəfindən mütamadi olaraq göstərilən diqqət və qayğının nəticələrini izləmək;
- Azərbaycanda mövcud olan multukultural dəyərlərin və tolerantlığın tarixi köklərini aşkara çıxarmaq;
- Etnik azlıqların müasir dövrdəki sosial-mədəni və iqtisadi-siyasi fəaliyyətlərini araşdırmaq;
- Azərbaycanda yaşayan etnik azlıqların tarix və etnoqrafiyasının öyrənilməsində muzeylərin rolunu qiymətləndirmək;
- MATM-ın fondlarında qorunub saxlanılan, etnik azlıqlara məxsus geyim nümunələrini araşdırmaq, onların müqayisəli təhlilini aparmaq;
- Bəzək nümunələrinin etnik azlıqların məişətində rolunu müəyyənləşdirmək və onların təsnifatını vermək;
- Etnik azlıqların məişətində yer alan sənət-təsərrüfat sahələri (dulusçuluq, misgərlik, xalçaçılıq, həsirçilik və s.) məhsullarını müəyyənləşdirmək, onların təsnifatını vermək və məişətdə rolunu müəyyən etmək;
- Etnik azlıqların məişət mədəniyyətinin fərqli xüsusiyyətlərini aşkarlamaqla, onun Azərbaycan xalqının məişət mədəniyyətinin üzvi tərkib hissəsi olduğunu sübut etmək.

**Tədqiqatın metodları.** Tədqiqat işi yazılarkən etnoqrafiyada qəbul olunmuş müxtəlif tədqiqat metodlarından istifadə edilmişdir. Milli Azərbaycan Tarixi Muzeyinin fond və kolleksiyalarında etnik azlıqlara aid maddi mədəniyyət nümunələrinə tarixilik baxımdan elmi-nəzəri yanaşma, təsviri, tarixi-müqayisəli analiz və sistematik

tarixi ümumiləşdirmə, tipoloji təsnifat metodlarından istifadə etməklə, etnik azlıqlarla Azərbaycan türklərinin məişət mədəniyyətləri qarşılıqlı-müqayisəli şəkildə araşdırılmış, oxşar və fərli cəhətlər aşkarlanmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın məqsəd və vəzifələrinə müvafiq olaraq müdafiəyə aşağıdakı əsas müddəalar çıxarılmışdır:

- Milli və dini tolerantlıq, multikultural ənənələr kontekstində Azərbaycanda yaşayan etnik azlıqların müasir durumu onların tarix və məişət mədəniyyətinə dövlət səviyyəsində yüksər qayğı və diqqətin göstəricisidir.

- Azərbaycan adlı etno-mədəni və etno-coğrafi məkanda məskunlaşan hər bir etnik azlıqlar tam hüquqlara malik olub, azərbaycanlılarla iç-içə yaşayaraq buranı özlərinə doğma vətən hesab edirlər.

- Etnik azlıqların məişət mədəniyyəti bəzi məhəlli-lokal variantlarına baxmayaraq, ümum-Azərbaycan məişət mədəniyyətinin üzvi tərkib hissəsini təşkil edir.

- MATM fondlarında mühafizə olunan əyani-vizual materiallar etnik azlıqların tarix və mədəniyyətininin öyrənilməsində böyük maddi bazadır.

- Muzeyin etnik azlıqlara aid geyim kolleksiyası və bəzək-zinət əşyaları onların milli xüsusiyyətlərini, təsərrüfat məşğuliyyətinin yönünü, etik, estetik-bədii zövqünü, etnik mənsubiyyətini, iqtisadi-mədəni durumunu öyrənməkdə mühüm əhəmiyyat daşıyır.

- Muzeydə etnik azlıqlara aid edilən dulusçuluq, həsirçilik, xalçaçılıq, misgərlik sənət sahələri, eləcə də üzümçülük və şərabçılıqla məşğulluq və bu sahələrin məmulatları əhalinin daxili tələbatını ödəməklə yanaşı, rəvan əmtəəlik məhsul kimi satış bazarlarına çıxarılaraq maddi rifaha da xidmət etmişdir.

- Qloballaşma prosesində xalqların milli kimliklərinin itirilməsinin qarşısının alınması məqsədi prioritet götürülərək, muzey materiallarının tədqiqata cəlb olunması ilə onların keçdikləri tarixi təkamül və inkişaf yolunun aydın mənzərəsini yaddaşlara həkk etmək, müvafiq bilgiləri və əyani materialları gələcək nəsillərə ötürmək vacib məsələlərdən biridir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin əsas elmi yeniliyi ondan ibarətdir ki, MATM-da qorunub saxlanılan və bəzi etnik azlıqlara (tatlar, dağ yəhudiləri, talışlar, kürdlər, ləzgilər, almanlar, ruslar və ermənilər) məxsus materiallar ilk dəfə olaraq kompleks şəkildə tədqiqata cəlb olunmuşdur. Doğrudur, həm XIX-XX əsrlərdə, həm də son illərdə Azərbaycanda yaşayan etnik azlıqlar haqqında bir sıra etnoqrafik tədqiqatlar aparılmışdır. Ancaq MATM-nin kolleksiyasında yer alan və etnik azlıqların məişət mədəniyyəti ilə bağlı materiallar bu vaxta qədər əhatəli öyrənilməmişdir. Odur ki, tarixi, coğrafi və etnoqrafik ədəbiyyatların əsas götürülməsi, etnik azlıqların yaşadığı bölgələrə edilən etnoqrafik səfərlər zamanı toplanılmış çöl-etnoqrafik materiallarının təhlili və MATM-ın ekspozisiyasında sərgilənən, fondlarında mühafizə olunan materiallar əsasında yazılan dissertasiya işində ilk dəfə olaraq:

- Milli və dini tolerantlıq, multikultural ənənələr kontekstində Azərbaycanda yaşayan etnik azlıqların məişət mədəniyyətinin azərbaycanlılar və digər etnik azlıqlarla müqayisəsi aparılmış, paralelləri, oxşar və fərqli cəhətləri aşkara çıxarılmışdır;
- Muzeyin etnik azlıqlara aid geyim kolleksiyası və bəzək-zinət əşyaları araşdırılaraq onların etnik-milli xüsusiyyətləri, daşıdığı funksiyalar, etnik identikliyin milli müəyyənlik göstəricisi olması təsdiq olunmuşdur;
- Etnik azlıqlara məxsus sənətkarlıq nümunələri (mis, gil və s.), məişət əşyaları, toxuculuq məmulatları (həsirlər, xalçalar və s.), bu nümunələrin öz əksini tapdığı müxtəlif səpkili fotoşəkillər və sənədlər əsasında etnik azlıqlar arasında sənət mədəniyyətinin inkişafı sübut olunmuşdur;
- Etnik azlıqların məişət mədəniyyətinin bəzi lokal-məhəlli xüsusiyyətlərinə baxmayaraq, onun Azərbaycan xalqının məişət mədəniyyətinin üzvi tərkib hissəsi olduğu müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Azərbaycan ərazisində tarixən məskunlaşan etnik azlıqların tarixinin, etnoqrafiyasının - məişət mədəniyyətinin öyrənilməsi, onlara milli-dini tolerantlıq, multikultural dəyərlər səviyyəsində qayğı və diqqət Azərbaycan Respublikasının dövlət siyasətinin ideoloji əsaslarından biridir. Aktuallığını şərtləndirdiyimiz dissertasiya işinin nəticələrindən milli azlıqların ümumi problemlərinin öyrənilməsində, onlar barəsində

ümumiləşdirilmiş əsərlərin yazılmasında, etnik mədəniyyətin ayrı-ayrı sahələri üzrə kataloqların, albom və açıqcaların hazırlanmasında, etnik azlıqların məişət və mədəniyyətinin təbliğində, ali məktəblərin bakalavr və magistr təhsili səviyyəsində seçmə fənnlərin tədrisində, muzeylərdə etnik azlıqların məişət mədəniyyətini əks etdirəcək daimi ekspozisiyaların qurulmasında, etnik azlıqların rəqs qrupları üçün geyim dəstlərinin hazırlanmasında və s. nəzəri, elmi və əməli məqsədlər üçün istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas nəticələri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi dövri elmi nəşrlərdə, o cümlədən, beynəlxalq (Gürcüstan, ABŞ, Türkiyə) və Respublika elmi konfranslarının materiallarında, ümumilikdə nəşr olunmuş 6 elmi məqalə və 8 konfrans məruzəsində əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası (hazırda: Mədəniyyət Nazirliyi) Milli Azərbaycan Tarixi Muzeyinin "Etnoqrafiya elmi fond" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi**. Dissertasiyanın ümumi həcmi (ədəbiyyat siyahısı istisna olmaqla) 282936 işarədən ibarətdir. Giriş 24874, I fəsil 89779, II fəsil 69611, III fəsil 90430, nəticə isə 8242 işarə təşkil edir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilat haqqında məlumat verilir və işin quruluşu, həcmi göstərilir.

Dissertasiyanın I fəsli **"Azərbaycanda yaşayan etnik azlıqlar"** adlanır. Fəslin **"Azərbaycan multikultural dəyərlərin qorunduğu ölkədir"** adlı ilk paraqrafında qeyd olunur ki, ərazi birliyi, bənzər sosial-iqtisadi, tarixi-coğrafi şərait azərbaycanlılarla etnik azlıqların məişətində, adət-ənənələrində ümumi və fərqli

cəhətlərin yaranmasına səbəb olmuşdur. Şübhəsiz ki, bunda xalqlar arasında gedən fəal ticari-iqtisadi və etno-mədəni əlaqələr də az rol oynamamışdır. Tarix boyu bu xalqlar arasında milli münasibətlər davamlı, qanunauyğun, dinc şəkildə davam etmiş, etnik zəmində münaqişə və gərginlik üçün şərait yaranmamışdır. Mövcud etnik-mədəni dəyərlər, multikulturalizmin xüsusiyyətləri, etnik azlıqların sosial-iqtisadi durumlarının yüksəldilməsi, onlara məxsus maddi-mədəniyyət nümunələrinin qorunması və öyrənilməsi istiqamətində atılan addımlar Azərbaycan Respublikasının əsas dövlət siyasəti istiqamətlərindən biri olmuşdur. Paraqrafda tədqiqata cəlb edilən etnik azlıqların milli-mədəni, dini və linqivistik dəyərlərinin qorunması ilə bağlı dövlət siyasəti faktlarla təsdiqlənmiş, Azərbaycanın özü isə dünya çapında multikultural və tolerant məkan kimi məşhurlaşdığı qeyd olunmuşdur. Bunu Azərbaycanda məskunlaşan dağ yəhudilərinin timsalında aydın izləmək olar. Belə ki, *"hal-hazırda Azərbaycanda dağ yəhudiləri özlərinin milli adət-ənənələrini, dini inanclarını saxlamaqla bağlı heç bir maneəyə rast gəlmirlər.. Dağ yəhudilərinin çox hissəsi həm Azərbaycanın bir çox təhsil ocaqlarında, həm də dünyanın müxtəlif ölklərinin – ABŞ, Almaniya, Rusiya, Türkiyə, Gürcüstan və s. təhsil müəssələrində oxumuşlar"*[52].

**"Azərbaycanda yaşayan etnik azlıqların tarixi etnoqrafiyası"** adlı 2-ci paraqrafda tarixən Azərbaycanda yaşamış və hal-hazırda yaşamaqda olan azsaylı xalqların tarixinə nəzər salınmış, onların müasir vəziyyətləri, cəmiyyətləri və ictimai-siyasi fəaliyyətləri haqqında məlumatlar verilmişdir. Burada Azərbaycan türkləri ilə bərabər, tatlar, talışlar, ləzgilər, kürdlər, dağ yəhudiləri, ingiloylar, avarlar, saxurlar, rutullar, xınalıqlılar, buduqlar, qrızlar, ruslar, ukraynalılar, almanlar və başqa xalqların nümayəndələri yaşamış və bir çoxları hələ də yaşamaqdadırlar. Dörd böyük dil ailəsinə - Türk, Şimali Qafqaz, Hind-Avropa və Kartvel dil ailəsinə məxsus 30 sayda olub, ölkənin müxtəlif guşələrində yığcam halda yaşayırlar [53].

---

[52] Əhmədova S.Ə. Azərbaycanın etnik mənzərəsindən – dağ yəhudiləri // - Sumqayıt: Sumqayıt Dövlət Universiteti "Elmi Xəbərlər", Sosial və humanitar elmlər bölməsi, - 2021. c. 17, № 1, - s. 47.

[53] Əhmədova S.Ə. Milli Azərbaycan Tarixi Muzeyində qorunan kiçik etnik qruplara məxsus materiallar // "Azərbaycan Respublikasında Turizm-rekreasiya

Paraqrafda onların tarixi, yayılma arealı, məskunlaşma bölgələri, dilləri, dinləri, etno-mədəni dəyərləri, bir sözlə, tarixi etnoqrafiyası haqqında müfəssəl bilgilər verilmişdir. Birgəyaşayış və birgə əmək bu xalqları bir-birinə daha da yaxınlaşdırmış, ortaq mədəniyyətlərin yaranmasına səbəb olmuşdur. Eyni zamanda, "*Azərbaycanda məskun olan etnik qruplar və onların mədəniyyəti Azərbaycan mədəniyyətinə rəngarənglik qataraq bu mədəniyyətin daha da zənginləşməsinə xidmət etmişdir*"[54].

Dissertasiyanın II fəsli **"Etnik azlıqların geyim mədəniyyəti: oxşar və fərqli xüsusiyyətlər"** adlanır. Fəslin **"Muzeydə etnik azlıqlara aid geyim kolleksiyası"** adlı 1-ci paraqrafında MATM-da mühafizə olunan, tat, dağ yəhudiləri, kürd, ləzgi, talış, avarlara məxsus, əsasən XIX-XX əsrlərə aid olan bəzi geyim nümunələri, onların xüsusiyyətləri, oxşar və fərqli cəhətləri aşkara çıxarılmış, eləcə də, rus əhaliyə məxsus bəzi tikmə nümunələri tədqiq edilmişdir. Azərbaycanda yaşayan xalqların geyim mədəniyyəti uzun bir inkişaf yolu keçmiş, bu prosesdə müxtəlif etnik azlıqlar da iştirak edərək, öz sosial, iqtisadi və mədəni xüsusiyyətlərini ümum-Azərbaycan geyim mədəniyyəti ilə uyğunlaşdıraraq ortaq bir kompleks yaratmışlar.

Tədqiqatla dağ yəhudilərinin və Quba tatlarının qadın geyimlərinin Şimali Qafqaz türklərinin geyimləri ilə identik olduğu aydın olmuşdur. Onlar Azərbaycana son dəfə XIX əsrdə köç etmiş və həmin geyim tərzini də qoruyub saxlamışlar. Geyim adlarında eyni ifadələrdən istifadə edilmişdir. XIX əsrdə Azərbaycana köçürülən molokanlar və almanlar öz geyimlərini qoruyub saxlamışlar. Ancaq, XIX əsrdə Azərbaycana köçürülən ermənilər demək olar ki, Azərbaycan geyimlərini qəbul etmişdilər. Hətta, məskunlaşdıqları ərazidən asılı olaraq Qarabağ, Bakı – Şirvan və Şimali Qafqaz türklərinin geyimlərindən geniş istifadə etmişlər. Zamanla əhalinin məişətinə yeni tikmə növləri daxil olmuşdur. Belə ki, "*XIX əsrin sonu-XX əsrin əvvəllərinə doğru rus əhalinin təsiri ilə ənənəvi tikmələr arasında "xaç" ("sayma", "krest") tikmə növü də yayıl-*

---

zonalarının yaradılması perspektivləri" mövzusunda Respublika elmi-praktik konfransının Materialları, - Bakı: 22 dekabr, - 2018, - s. 146.

[54] Paşayeva M. Azərbaycan etnoqrafik xəzinələr muzeyidir / - Bakı: Tarix və onun problemləri, - 2003. № 3, - s. 232-233.

*mağa başlamış və ənənəvi tikmə sənəti növlərini tədricən aradan çıxarmışdı*[55]. Bu isə onu göstərir ki, Rusiya və Avropa ilə etnik-mədəni əlaqələr sayəsində yeni ənənələr məişətimizə sirayət etmiş, ənənəvi tikmələr yerini yeni tikmə növlərinə verməyə başlamışdır. Paraqrafda milli azlıqların geyimlərinin Muzeydə saxlanan ayrı-ayrı nümunələri tədqiq edilmiş, çöl-etnoqrafik və ədəbiyyat materialları ilə onların oxşar və fərqli cəhətləri aşkara çıxarılmışdır

**"Bəzək-zinət əşyaları"** adlanan 2-ci paraqrafda etnik azlıqların istifadə etdiyi bəzəklər, onların xüsusiyyətləri, oxşar və fərqli cəhətləri öz əksini tapmışdır. Məlumdur ki, bəzəklərlə *"xalqın etnik tərkibini, sinfi (sosial) və yaş mənsubiyyətini, maddi və mənəvi mədəniyyətni, estetik-bədii zövqünü, istehsal həyatını öyrənmək mümkün olur"*[56]. Etnik azlıqlar əsasən Azərbaycan bəzəklərinə üstünlük versələr də, üzərində çoxguşəli ulduz təsviri olan "siyə şəvə" adlı muncuq boyunbağı, "səbət" və "qırxdüymə" sırğa, "mumasan" ("qazayağı") adlı boyun-sinə bəzəyi, "tavat kəmər", qolbaq -"dasinə", "həsiri bilərzik" və s. etnik azlıqlar arasında geniş istifadə olunmuşdur. Birgəyaşayış və etnik-mədəni mübadilə etnik azlıqlar arasında oxşar bəzək növlərinin yaranmasına səbəb olmuş, eyni zamanda, bəzi bölgələrdə bənzər bəzək əşyaları fərqli adlarla tanınsa da, hər bir etnik qrup öz lokal xüsusiyyətlərini qorumağa çalışmışdır.

Dissertasiyanın III fəsli **"Etnik azlıqların Azərbaycanın təsərrüfat məişətində və sənətkarlığında yeri"** adlanır. Bu fəslin **"Etnik azlıqların təsərrüfat məşğuliyyəti ilə bağlı materiallar"** adlı 1-ci paraqrafında muzey materialları əsasında almanların, rusların, qismən də talışların təsərrüfat həyatı ilə bağlı maddi nümunələr tədqiqata cəlb olunmuşdur. Üzümçülük və şərabçılıq Azərbaycanda qədim zamanlardan yaranıb inkişaf etsə də, XIX-XX əsrin əvvəllərində bu sahənin inkişafında alman əhalinin rolu danılmazdır. Bu işdə alman əsilli Forer və Hummel qardaşları xüsusilə seçilmişdir. *Almanların inşa etdiyi şərab zavodları XIX*

[55] Abdulova-Axundova G. Qarabağın sənət irsi (tarixi-etnoqrafik tədqiqat) / G.Abdulova, - Bakı: Təhsil, - 2022. s. 175.

[56] Vəliyev, F. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat) / F. Vəliyev. - Bakı: Şərq-Qərb, - 2010. s. 143.

*əsrin sonlarına qədər ölkədə hazırlanan şərabın 60 faizini verirdi”.*[57] Göygöl rayon tarix-diyarşünaslıq muzeyində qorunan əşyalar, almanların xalqımıza bəxş etdiyi innovativ biliklər, təsərrüfat alətləri bu paraqrafda müfəssəl tədqiq olunaraq elmi dəyəri üzə çıxarılmışdır.

Talışların təsərrüfatında əkinçilik, xüsusilə, taxılçılıq və çəltikçilik əsas yer tutmuşdur. Hətta, Cənub bölgəsi nəinki Azərbaycan üçün, ümumilikdə, Cənubi Qafqaz üzrə çəltikçiliyin beşiyi sayılmışdır. Bu onların məişətinə də böyük təsir göstərmiş, yemək mədəniyyətində düyü qidaları üstünlük təşkil etmişdir. Fotoşəkillərdə çəltik yığmağa gedən talış qadınlarının üzərində olan önlük təsviri var ki, onun bir nümunəsi EF-də qorunub saxlanılır (İnv. № 1137).

Azərbaycanın iqtisadi həyatında rusların da özlərinə məxsus payı vardır. Onların gəlişi ilə ölkəmizdə yeni buğda sortları (“qirka” və “arnautka”) əkilmiş, “Vud” markalı biçin aləti peyda olmuş, “merinos” qoyun cinsi bəslənmiş, yerli əhali “molokan arabası”, “molokan dəyirmanı” və “molokan atı” ilə tanış olmuş, pomidor, kələm, badımcan, kartof və b. bitkilər məişətə daxil olmuş, kəndir, günəbaxan kimi bitkilər becərilmişdir. Paraqrafda bütün bunlar geniş təhlil olunmuşdur.

III fəslin 2-ci paraqrafı **“Etnik azlıqların sənət məşğuliyyəti ilə bağlı materiallar”** adlanır. **“Dulusçuluq”, “Misgərlik”, “Həsirçilik” və “Xalçaçılıq”** adlı dörd bənddən ibarət olan paraqrafda azsaylı xalqların fəal iştirakçısı olduğu müxtəlif sənət sahələri təsnif olunur, MATM-da mühafizə olunan sözü gedən sənət nümunələrinə aid maddi mədəniyyət nümunələri tədqiqata cəlb edilir. Bu sənət sahələrinin məmulatları əhalinin daxili tələbatını ödəməklə yanaşı, həm də rəvan əmtəəlik mal kimi satış bazarlarına çıxarılaraq onların maddi rifahına da xidmət etmişdir.

**Dulusçuluq** bütün Azərbaycanda mühüm sənət sahəsi olmuş, o cümlədən tat, ləzgi, dağ yəhudiləri və talışlar arasında da geniş yayılmışdır. Tarixən ənənəvi dulus məmulatı istehsalı etnik azlıqların da məskunlaşdığı Azərbaycanın bir sıra sənət mərkəzlərində: “*Quba-*

---

[57] Əhmədova S.Ə. Azərbaycanda yaşayan almanların təsərrüfat məişəti // - Gəncə: Gəncə Dövlət Universitetinin Eımi Xəbərləri, Fundamental, humanitar və təbiət elmləri seriyası, - 2019. № 1, - s. 233.

*da Yenikənd və İspik (tat), Masallıda Ərkivan, Lənkəranda Separadi (talış), Qəbələdə Küsnət (ləzgi) kəndlərində mövcud olmuşdur”*[58].

**Misgərlik** sənətində və “*XIX əsrdə mis qablar istehsalında əsas yer tutan Lahıc təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda misgərliyin başlıca mərkəzi sayılırdı*[59]. Muzeyin fondunda olan mis qabların böyük əksəriyyəti Lahıc ustalarının əməyinin məhsuludur. Misgərlik sənəti bir çox xalqların məişətində mühüm rol oynasa da, Azərbaycanda yaşayan etnik azlıqlardan bəziləri bu sənətlə müntəzəm məşğul olmuş, vaxtilə onların əl işləri əhalinin məişətində mühüm yer tutmuşdur. Ləzgilər arasında isə qalaylama işi geniş yayılmışdır. Bənddə mis qabların xammal bazası, istehsalı, Muzeydə qorunan mis qabların təsnifatı, bəzək-naxış elementləri, misgərliyin yayılma arealı haqqında araşdırma yetərincədir.

**Həsirçilik** Azərbaycan xalqının, xüsusən də talışların həyatında çox mühüm yer tutmuş, həm XIX-XX əsrlərdə, həm də müasir dövrümüzdə əhalinin məişətində öz əhəmiyyətini qoruyub saxlamışdır. Talışlar bu sənətin qorunub saxlanılmasında və günümüzədək gətirilib çıxarılmasında öz xidmətlərini əsirgəməmişlər. Həsirdən müxtəlif təyinatlı məişət əşyaları (zənbil, tərəzi, məcməyi, iynə-sap qabı, sandıqça, manqal yelpiyi, papaqlar, döşəmə və divar həsirləri və s.) hazırlanaraq onlar həm daxili tələbatı ödəmiş, həm də əmtəəlik mal kimi satılmışdır. Bu bənddə həsir xammalı (“dala”, “cil”, “lığ”, “pizə” və ya “puzə”), həsir nümunələrinin təsnifatı, həsirtoxuma dəzgahları (“üfiqi”-yer dəzgahı və “şaquli”- asma dəzgah) barədə araşdırma göstərir ki, həsirçilik talışların Azərbaycan mədəniyyətinə verdiyi əhəmiyyətli töhfədir.

**Xalçaçılıq** xalqların zəngin mənəvi aləmini əks etdirən, öz xarakteri, intellekti, dünyagörüşü, estetikası və həyat fəlsəfəsi ilə seçilən, heyrətamiz xüsusiyyətləri təcəssüm etdirən bir sənət sahəsidir. Bu sənət növü “*Azərbaycan türkləri, eləcə də, Azərbaycan ərazisində yaşayan xalqlar üçün”* [60] də xarakterik olmuşdur. XIX

---

[58] Azərbaycan etnoqrafiyası [3 cilddə] / Baş red. T. Bünyadov. – Bakı: Şərq-Qərb,- c. 1. – 2007. – s. 348.

[59]Ализаде, А. Лагич (Историко-этнографическое исследование) / А. Ализаде. - Баку: Çaşıoğlu, - 2010. – с 95.

[60] Bakı, Şirvan, Quba xalçaları (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasından). Kataloq / Red. N.Vəlixanlı, tərt. ed. X.Əsədova – Bakı: Ziya, – 2013. – s. 5.

əsrin 90-cı illərində Qarabağda tədqiqatlar aparmış Y.Zedqenidze qədim Qarabağı qarış-qarış gəzmiş, xalçaçılıq sənəti ilə bağlı zəngin məlumatlar toplamışdır[61]. Y.Zedqenidze yazır ki,...*"ermənilər arasında xalçaçılıqla çox az adam məşğul olur" ...ermənilər xalça toxumağı azərbaycanlılardan öyrənməyə məcbur idilər*[62]. Talış, tat, kürd, ləzgi və dağ yəhudiləri də öz növbəsində Azərbaycan xalça sənətinin inkişafına tövhə vermiş, xüsusilə, Quba, Şirvan və Qarabağ xalçaçılıq məktəbinə aid xalçaların toxunmasında fəal iştirak etmişlər. Dağ yəhudiləri xalça ticarətində fəallıq göstərmiş, Azərbaycan xalçalarının dünya miqyasında tanıdılmasında xüsusi xidmətləri olmuşdur. "*Nəfis tərtibatlı, incə və zərif toxunuşlu, göz oxşayan Azərbaycan xalçaları dağ yəhudi tacirlərinin əsas qazanc mənbələrindən biri idi"*[63]. Bu bənddə milli azlıqların yaşadığı areallarda toxunan "Güllü çiçi", "Pirəbədil" "Qımıl", "Quba", "Buta", "Sərəngülü", "Qoç buynuzu", "Qızılgül", "Nəlbəki gülü" və b. xalçaların bəzək-çeşni harmoniyası, rəng çalarlarının əlvanlığı, bəzən dünya muzeylərində başqa ad altında təqdimi, yüksək dekorativ mahiyyəti və texniki xüsusiyyətləri, hətta xalçaçı qadınların adları və dünya sərgilərində mükafat almaları da araşdırılmışdır.

Dissertasiya işinin **"Nəticə"** hissəsində ümumiləşdirmələr aparılmış və tədqiqata yekun vurulmuşdur. Azərbaycanın milli muzeyləri içərisində flaqman hesab olunan Milli Azərbaycan Tarixi Muzeyinin fond və kolleksiyalarında toplanan maddi-mədəni sərvətlər özünün zənginliyi və çoxçeşidliliyi ilə seçilməklə, məişət və mədəniyyətimizin bütün sahələrini tarixi-etnoqrafik baxımdan araşdırmaq üçün dəyərli materiallar verməklə yanaşı, etnik azlıqların da məişət mədəniyyətinin araşdırılmasında yetərli məlumat və material bazası olmuşdur.

İlkin orta əsrlərdən bəri Azərbaycanın siyasi xəritəsi bir çox dəyişikliyə məruz qalsa da, bu onun polietnik bir ölkə kimi multi-

---

[61] Abdulova-Axundova G. Qarabağın sənət irsi (tarixi-etnoqrafik tədqiqat). / G.Abdulova, - Bakı, - Təhsil. - 2022. s. 46.

[62] Зедгенидзе Я. Производство ковровъ и паласов в городе Шуше Елисаветпольской губернии // СМОМПК, - 1891. выпуск 11, - с. 3.

[63] Əhmədova S.Ə. Azərbaycan xalça sənətinin inkişafında etnik-mimmi azlıqların rolu // - Bakı: Pedooji Universitetin Xəbərləri, Humanitar, ictimai və pedoqoji-psixoloji elmlər seriyası, - 2021. c. 69, № 1, - s. 63.

kultural dəyərlərə və tolerantlığa olan baxışlarında dəyişikliklər etməmişdir.

Bu gün, etnik azlıqların hüquq və azadlıqlarının qorunması Azərbaycan Respublikasının qanunları və beynəlxalq təşkilatların fəaliyyəti ilə tənzimlənir. Son illərdə Azərbaycanda yaşayan etnik azlıqların onlarla mədəniyyət mərkəzlərinin yaradılması, etnik azlıqların ana dilində kitablar, jurnallar, folklor materiallarından ibarət kitabçalar, tərcümə ədəbiyyatlarının nəşr edilməsi və s. etnik azlıqlara dövləti səviyyədə vətəndaş münasibətinin göstəricisidir. MATM-da etnik azlıqların məişət mədəniyyətini özündə əks etdirən eksponatlar onların tarixini, məişət və mədəniyyətini müasir azərbaycançılıq ideologiyası kontekstində dünyaya tanıtmağa imkanlar açır.

MATM-nin materialları əsasında Azərbaycanda yaşayan etnik azlıqların məişət mədəniyyətinin tədqiqi üzrə apardırma təsdiq edir ki, bu sahə uzun sürən tarixi inkişaf prosesinin, onların empirik bilik, təcrübə və peşə bacarığının, təsərrüfat məşğuliyyətinin, sosial-sinfi təbəqələşmənin, ənənəvi həyat və məişət tərzinin məhsulu olmuş və bilavasitə bu amillərin təsiri altında formalaşmışdır. Muzeydə mühafizə olunan materiallar, həm də hər bir etnik azlığın tarixinin, maddi-mənəvi mədəniyyətinin, eləcə də məişətinin fərdi qaydada öyrənilməsində daim mühüm mənbə rolunu oynamışdır.

Aparılan araşdırmalardan, gəlinən ümumi nəticələrdən çıxış edərək qətiyyətlə söyləmək olar ki, etnik azlıqların məişət mədəniyyəti bir çox xüsusiyyətlərinə - elementlərinin ad mənsubiyyətinə, hasilə gəlmə usul və vasitələrinə, məhəlli-lokal cəhətlərinə baxmayaraq, ümum-Azərbaycan məişət mədəniyyətinin üzvi tərkib hissəsi kimi səciyyələnmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalə və tezislərdə əksini tapmışdır:**


1. Azərbaycanda multikulturalizm // 17. Uluslararasıtürk Sanatı, Tarihi Ve Folkloru kongresi / Sanat Etkinlikleri – Bakı: - 5-7 eylül,- 2023, -s.133-137
2. Azərbaycan xalça sənətinin inkişafinda etnik-milli azlıqların rolu // – Bakı: ADPU Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, - 2021. № 1, c. 69, - s. 58-97.

3. Azərbaycanın etnik mənzərəsindən – dağ yəhudiləri // – Bakı: SDU Elmi xəbərlər, - 2021. № 1, c. 17, - s. 46-52.

4. Azerbaycanda yaşayan bazi etnik gruplar ve milli azlıklar // V İnternational European conference on social sciences, - İzmir, - 2020, - s. 533-537.

5. О некоторых христианских народах Азербайджана // Вчені Записки Таврійського Національного Університету Імені В.І. Вернадського, - Серія: Історичні науки, - том 31 (70) № 4, - 2020, - с. 231-234.

6. Azərbaycanın rus əhalisi - malakanlar və duxaborlar // – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, - 2020. № 2, - s. 136-149.

7. From württemberg to Goygol // International scientific review of the problems of history, cultural studies and philology, - Boston: - 19–20 april, 2020, - p. 4-13.

8. The role of Mountain Jews in the development of jewelry art of Azerbaijan // III international symposium for young scholars in the Humanities, – Tbilisi: - 27-30 November 2019, - p. 37- 43.

9. Azərbaycanda yaşayan almanların təsərrüfat məişəti //– Gəncə: GDU Elmi Xəbərlər (Fundamental, humanitar və təbiət elmləri seriyası), - 2019. № 1,- s. 231-234.

10. Milli Azərbaycan Tarix Muzeyində qorunan kiçik etnik qruplara məxsus materiallar // Azərbaycan Respublikasında turizm-rekreasiya zonalarının yaradılması perspektivləri, -Bakı: - 22 dekabr, 2018, - s. 145-149.

11. Azərbaycanın bəzi etnik qrupları - Şirvanşahlar dönə-mindən günümüzə (Milli Azərbaycan Tarixi Muzeyinin Materialları əsasında) // Müasir Azərbaycandan Şirvanşahlar dövlətinə səyahət adlı beynəlxalq konfransın materialları, - Bakı: – 2018, - s. 106-108.

12. Etnik azlıqların sənət mədəniyyəti - həsirçilik // - Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, - 2018. – s. 53-58.

13. Azərbaycan muzeylərində etnik qrupların maddi mədəniyyət nümunələrinin qorunması // VII Uluslararası türk sanatı, tarixi, folkloru kongresi, sanat etkinlikleri, - Bakı: - 11-15 nisan, - 2017, - s.197-202.

14. XIX ərsrin sonlarında və XX əsrin əvvəllərində Azərbay-canda yaşayan qeyri-müsəlmanların dini və mədəni inkişafı // XXI əsrdə dünya elminin inteqrasiya prosesləri adlı konfransın mate-rialları, - Gəncə: - 10-14 oktyabr,- 2016, - s. 288-289.

Dissertasiyanın müdafiəsi 12 iyun 2025-ci il tarixində saat 13⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya Şurasının iclasında keçiriləcək

Ünvan: AZ. 1073, Bakı şəhəri, H. Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun internet saytında yerləşdirilmişdir.

Avtoreferat 08 May 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.05.2025
Kağızın formatı: A5
Həcm: 47995 iş.
Tiraj:100